**Qəniyev, E.** Şəhidlik Vətənə olan sevginin zirvəsidir // Azərbaycan : qəzet. - 2025. - 30 sentyabr. - **№ 209**. - S. 9.

Bütün müqəddəs yolun yolçularının ilk dərs aldıqları, görüb-götürdükləri ataları, anaları, ailələri olub. Hər şey - sevmək də, əqidə də, cəsarət də, özünü fəda etmək bacarığı da, ədalətli olmaq hissi də düzgün tərbiyədən başlayır, halallıqdan yaranır.

İkinci Qarabağ savaşında, Vətən müharibəsində minlərlə igidimiz həyatlarını canlarından çox sevdikləri Vətənə qurban verdilər. Minlərlə igidimiz düşmənlə savaşda müxtəlif dərəcədə xəsarət alaraq, yaralanaraq ölümə hazır olduqlarını əməlləri ilə sübut etdilər. Onlar "ölərik, düşmənə arxa çevirmərik, təki Vətən yaşasın, Vətən sağ olsun", - deyib qəhrəmancasına döyüşə atıldılar. "Vətəni uca olan oğulların başı aşağı olmaz", - deyib irəli şığıdılar.

Belə qəhrəmanlardan biri də Nurlan Ağa oğlu Mustafayevdir. O, 1991-ci il noyabrın 8-də Bakı şəhərində dünyaya göz açıb. Əkiz qardaşı Tərlan deyir ki, Nurlan kiçik yaşlarından mərdliyi, mehribanlığı və zəhmətkeşliyi ilə seçilirdi. Nurlan fərqli biri olduğunu kiçik yaşlarından büruzə verirdi. Bağcada böyük adam kimi məni qoruyur, qayğıma qalır, bir an gözündən ayırmazdı. Əkiz tayım olduğu üçün mən də onu çox istəyirdim. Nurlanın bir yeri ağrıyanda, onu öz canımda hiss edərdim. Sonra məktəb illərimiz başladı. Yasamal rayonu, 286 saylı tam orta məktəbdə oxuyurduq. O illər gözümün önünə gəlir - sırada bir yerdə dayanardıq, həmişə öndə durmağa can atardıq. Sinifdə də bir partada oturardıq. Nurlan dərslərə daha çox diqqət yetirirdi. Evə gələn kimi çalışırdı ki, müəllimlərin verdiyi tapşırıqları yerinə yetirsin. Mənə də "gəl, birlikdə oxuyaq", - deyirdi. Məktəb illərimiz gözəl keçib. Arzumuz ali məktəbə daxil olmaq idi. Atamız gənc yaşında - bizim 12 yaşımız olanda rəhmətə getdi. Ana babamızın təqaüdü ilə yaşayırdıq. 14 yaşımız olanda həm işləyirdik, həm də oxuyurduq. Buna görə də bizə universitetə qəbul olmaq qismət olmadı.

Əkiz qardaşların həyatları, ömür yolları bir cığırdan keçib. Tərlan deyir: "Uşaqlığımızın necə keçdiyini heç özümüz də bilmədik. Bir də gördük ki, əsgərlik vaxtımız çatdı. Ağcabədidə yerləşən "N" saylı sərhəd qoşunlarında xidmətə başladıq. Hərbi hissədə bizi ayırmaq istədilər. Komandirlərlə danışıb birlikdə xidmət etməyə nail olduq. Beləcə, xidmətə davam etdik. Düşmənlə üz-üzə postda olduğumuz üçün hər anımız təhlükəli idi. Amma biz qorxmadan, mərdliklə xidmət edirdik. Komandirlərin verdiyi tapşırıqları layiqincə yerinə yetirirdik. Beləcə, xidmətimizi uğurla başa vurub, evimizə qayıtdıq".

Qardaşı haqqında göz yaşı içində xatirələrini danışan Tərlan deyir ki, Nurlan kiçik yaşlarından çox vətənpərvəriydi. Mübariz İbrahimov onun idealı idi. Qəhrəmanımızla saatlarla söhbət edirmiş kimi üz-üzə dayanıb şəklinə tamaşa edərdi. Nurlanın ən çox getdiyi yer Mübariz İbrahimovun məzarının başı olardı. Tez-tez qəhrəmanımızın məzarını ziyarət edər, şəkil çəkdirib "Bizim qəhrəmanımız" yazaraq paylaşım edərdi".

Kiçik yaşlarından ailə qayğıları ilə böyüyən Nurlan hərbi xidməti başa vurduqdan sonra dərhal əmək fəaliyyətinə başladı. Santexnik kimi fəaliyyət göstərirdi. Anası Sevda xanım

deyir: "Nurlan çox bacarıqlı, həm də məsuliyyətli idi. Həmişə çalışardı ki, işini mükəmməl görsün. Kombi ustası idi. Heç vaxt qohum-qonşudan, dostlarından pul almazdı. İşini gördüyü adamı öz doğması kimi qəbul edərdi".

Dərdli ananın gözlərində yaş gilələnir. Hıçqırıq boğur. Lənətə gəlsin müharibəni. Balamı əlimdən aldı... deyir.

Tərlan söhbətə qoşularaq deyir: "İkinci Qarabağ müharibəsi başlanandan Nurlan sakitləşmək bilmirdi. Döyüşə gedəcəyini deyirdi. Müharibənin ilk günü idi, qapımız döyüldü. Gələnlər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları idi. Onları mən qarşıladım. Müharibəyə çağırış vərəqi gətirmişdilər. Dedim ki, əgər mümkündürsə, mən də gedim, icazə vermədilər. Dedilər, evdən bir nəfər getməliydi, siyahıda Nurlanın adı çıxıb. Onunla əlaqə saxlayan kimi dedi: "Mən dərhal gəlirəm".

Nurlan evə gələn kimi hərbi biletini götürdü, böyük qardaşım Elnur, mən və Nurlan birlikdə Yasamal Rayon Hərbi Komissarlığına getdik. Beləcə, Nurlanı döyüş bölgəsinə yola saldıq.

Sevda xanım danışır: "Müharibənin ilk günləri Nurlanla əlaqə saxlaya bilməsək də, sonralar özü zəng vururdu. Deyirdi ki, "ana, hər şey yaxşıdır, məndən narahat olmayın, əlimdə qələbə bayrağı qayıdacağam. Müharibədən gələn kimi Mübariz İbrahimovun məzarını ziyarət edib deyəcəyəm ki, uğrunda can verdiyin Vətən torpağı indi azaddır". Sonuncu danışığımız oktyabrın 8-də oldu. O, nə qədər desə ki məndən narahat olmayın, hər şey yaxşıdır" heç rahat ola bilmirdim. İçimdə bir hiss məni sanki didib-parçalayırdı. Özümdən asılı olmayaraq boğulurdum. Elnurla Tərlan da özlərinə yer tapa bilmirdilər. Nurlana bircə onu tapşırdım ki, "ehtiyatlı ol, özünü qoru, sizi min əzabla böyütmüşəm, çalış sağ qayıt". Bu, bizim son danışığımız oldu. Sonra əlaqə kəsildi...

Torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşə atılan Nurlan Mustafayev oktyabrın 14-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid oldu.

Tərlan deyir: "Qardaşım oktyabrın 14-də yaxın silahdaşları, komandiri ilə birgə şəhid olub. Düşmənin səngərinə qədər yaxınlaşan igidlərimizin cəsədlərini həmin gün çıxarmaq mümkün olmayıb. Amma komandanlıq Nurlangilin şəhid olması barədə icra hakimiyyətinə məlumat vermişdi. Gəlib qapımızda səliqə-sahman yaradırdılar. Soruşanda "narahat olmayın, sadəcə, istəyirik ki, buralar daha səliqəli görünsün", - deyib xəbəri gizlədirdilər. İlk olaraq dindar qonşumuz yaxınlaşıb dedi ki, "Nurlan şəhidlik zirvəsinə ucalıb". Bu xəbəri eşidəndə sanki dünya başıma uçdu, ayaqlarımın altından torpaq çəkildi. Anam da hiss etdi... Evimizə qohum-qonşu axışdı, hamı bizim dərdimizə şərik oldu. Ordumuz həmin əraziləri düşməndən azad etdikdən sonra oktyabrın 19-da qardaşımın nəşini gətirdilər. Səhəri gün - oktyabrın 20-də isə Nurlan İkinci Fəxri xiyabanda dəfn olundu.

Böyük qardaşı Elnur deyir: "Döyüş yoldaşları Nurlanın necə mərd, qorxmaz olduğundan ağızdolusu danışırdılar. Nurlan ailəsi olan döyüş yoldaşlarına deyirmiş: "Siz ailəlisiniz, arxada qalın. Mən subayam, yarım - əkiz tayım evdədir, narahat olmayın". Nurlan ailədə olduğu kimi, xidmətdə də döyüş yoldaşlarının qayğısına qalırmış. Bu gün də döyüş yoldaşları

evimizə gəlir, Nurlanı xatırlayırlar. Onu az tanıyanlar belə deyirlər ki, Nurlan çox cəsur, qorxmaz və igid bir oğul idi".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamına əsasən Nurlan Mustafayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Bu gün Nurlan Mustafayevin adını yalnız ailəsi yox, bütün Azərbaycan xalqı qürurla anır. Keçdiyi qısa ömür yolu gəncliyə örnək olan qəhrəmanın xatirəsi yaddaşlarda əbədi yaşayacaq.